**UOT 94 (479.24)**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ TARİXİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA (2003-2023-cü illər)

**Aynur KƏRİMLİ***

Məqalə redaksiyaya daxil olmuşdur: 6 may 2024; çapa qəbul edilmişdir: 28 iyun 2024; online-da çap edilmişdir: 17 sentyabr 2024.

Received: 6th of May, 2024; accepted: 28th of June, 2024; published online: 17th of September, 2024.

**Açar sözlər:** *cümhuriyyət, mühacirət, bolşeviklər, Müsavat partiyası, istiqlaliyyət*

## Giriş

1918-1920-ci illərdə Azərbaycan ilk dəfə dövlət suverenliyini qazanaraq dünya birliyində layiqli yer tutmağa çalışmış və beləliklə, bu hadisə Azərbaycan xalqının tarixində mühüm mərhələ olmuşdur. Dünya tarixində yeni-respublika tipli demokratik dövlət idarəçiliyi formasının geniş yayılmağa başladığı dövrdə yaranmış Azərbaycan Cümhuriyyəti xalqımızın tarixin ən qədim qatlarından başlanan dövlətçilik ənənələrinin qanunauyğun davamı idi [2, s.16]. Cümhuriyyətin yarandığı dövrdən mövcud olan Azərbaycan və Türkiyə qardaşlığı Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra aralarındakı münasibətlərin dövlət səviyyəsində yenidən bərpa olunması ilə Azərbaycan dövlətçilik tarixinin tədqiqatı Türkiyə tarixçilərinin daha çox marağına səbəb olmuş və daha ətraflı şəkildə araşdırılmasına təkan vermişdir.

II Qarabağ müharibəsi zamanı bütün dəstəyi ilə Türkiyənin Azərbaycanın yanında olması ilə iki dövlətin qardaşlığı bir daha öz təsdiqini tapmışdır. İki dövlətin bu səviyyədə yaxın olması digər sahələrdə olduğu kimi elm sahəsində də yaxınlığını şərtləndirmişdir və Türkiyə tarixşünaslığında 2003-2023-cü illərdə Azərbaycan Xalq Cümhuriyyəti tarixinin tədqiqinə həsr olunmuş dəyərli tədqiqat əsərlərinin, məqalələrin sayı xeyli artmışdır.

## 1. Sebahattin Şimşirin Azərbaycan Xalq Cümhuriyyətinə baxışı

Azərbaycan Xalq Cümhuriyyəti tarixini tədqiq edən Türkiyə tarixçilərindən biri də Sebahattin Şimşir olmuşdur. Giriş və 4 fəsildən ibarət olan “Azerbaycan istiklal mücadelesi” kitabında S.Şimşir Cümhuriyyətin süqutu, mühacirətin başlanması və mühacirət zamanı yaranmış vəziyyəti ətraflı şəkildə təsvir etmişdir.

S.Şimşir kitabın I fəslində AXC-nin 23 ay fəaliyyət göstərməsi, ruslar tərəfindən 1920-ci ilin aprel ayında işğalı və rusların daxil olduğu hər yerdə qırğınlar, yağmalamalar törətməsi, eyni zamanda 1920-30-cu illərdəki fəaliyyəti haqqında yazır. Müəllif Cümhuriyyətin süqutu və onun yaratdığı vəziyyəti bu sözlərlə ifadə edir: “Azərbaycanlılar 27 aprel 1920-ci ildən sonra bolşeviklərin təzyiqindən və zülmündən qurtulmaq üçün başda Türkiyə olmaqla İrana və qonşu ölkələrə getməyin yollarını axtarmağa başlamışdır. Şübhəsiz ki, bu şəxsiyyətlər arasında ən diqqət çəkən şəxs Məhəmməd Əmin Rəsulzadə idi” [5, s. 21].

Bu fəsildə M.Ə.Rəsulzadənin Moskvadakı, İstanbuldakı fəaliyyəti, Azərbaycan milli mərkəzinin təşəkkül tapması, Müsavat partiyası və onun istiqlaliyyət uğrunda apardığı

* *doktorant, Azərbaycan Dillər Universiteti*
*e-mail:* aynurkarimli0@gmail.com
*DOİ:* https://doi.org/10.30546/25194011.2024.13.4.019

mübarizə, eləcə də qeyd olunan illərdə istiqlal mübarizəsini əks etdirən müxtəlif məcmuələr haqqında geniş məlumat verilmişdir. S.Şimşir Müsavat partiyasının fəaliyyətini bu cümlələrlə ifadə edir: "27 aprel 1920-ci il Qızıl ordu tərəfindən işğal olunduqdan sonra Müsavat partiyası böyük zərbə almışdır. Müsavatçılar 1923-cü ildən etibarən müxtəlif ölkələrdə fəaliyyət göstərmişdir. Bu ölkələr arasında Türkiyə, Polşa, Almaniya əsas yeri tuturdular" [5, s. 37].

1920-ci ildə bolşeviklər müstəqil Azərbaycan dövlətini zorla devirdikdən sonra bu işğalçı rejimlə barışa bilməyən ölkənin qabaqcıl adamları, ziyalıları vətəni tərk etmək məcburiyyətində qaldılar. Onların böyük əksəriyyəti Türkiyəyə mühacirət etməyi üstün tutdular. M.Ə.Rəsulzadənin başçılığı ilə 1925-ci ildə İstanbulda mühacir nəşriyyatı qurulduqdan sonra kitab və qəzet nəşri daha sistemli xarakter aldı. Siyasi mühacirətin Məhəmməd Əmin Rəsulzadə, Məhəmməd Əli Rəsulzadə, Mirzəbala Məmmədzadə, Əbdülvahab Yurdsevər, Kərim Odər, Xəlilbəy Xasməmmədli və başqa nümayəndələri Azərbaycan tarixi və mədəniyyəti, Azərbaycandakı siyasi mübarizənin və dövlət müstəqilliyinin tarixi, bolşevik rejiminin özbaşınalıqları haqqında sərt həqiqətlərlə zəngin yazılarını çap etdirməyə başladılar.

Kitabın II fəsli mühacirlərin 1931-1947-ci illərdəki fəaliyyətinə həsr olunmuşdur. Tükiyə mətbuatında azərbaycanlılar Müsavat partiyası, Yurd bilgisi jurnalı çərçivəsində istiqlal mübarizəsini davam etdirmişdir. İlk sayı 1932-ci ilin yanvarında işıq üzü görən "Azərbaycan Yurd Bilgisi"nin məqsədi bu ilk nömrədə vurğulanır. "Bir neçə söz" başlıqlı bu bölmədə bildirilir ki, jurnalın məqsədi təkcə Azərbaycanı yaxından tanıyanlarla birgə araşdırma qrupu yaratmaq və mədəniyyətşünaslıq aparmaq deyil, eyni zamanda onu həmvətənlərinə, dostlarına tanıtmaqdır. Bunun da kifayət etməyəcəyi təqdirdə ortaq türk mədəniyyətinin öyrənilməmiş tərəflərini işıqlandırmaq məqsədinin güdüldüyü də əlavə edilir" [5, s.102] .

Kitabın III fəsli 1947-1955-ci illər arasındakı cümhuriyyətçilərin fəaliyyəti haqqında geniş məlumatı əks etdirir. Bu fəsildə azərbaycanlıların İkinci Dünya müharibəsinin bitməsi ilə Türkiyəyə qayıtması və fəaliyyəti, xüsusən də 1947-ci ilin sentyabrında M.Ə.Rəsulzadənin Türkiyəyə qayıtması ilə fəaliyyətə yenidən başlanmışdır. M.Ə.Rəsulzadə yenə Türkiyədə əvvəllər olduğu kimi, Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə davam etmişdir.

Bu mübarizənin əsas üsulu yenə də mətbuat və konfranslar vasitəsilə Azərbaycan gənclərinə və Türkiyədəki dəstəkçilərinə öz fikirlərini yorulmadan çatdırmaq olmuşdur [5, s. 136]. Eyni zamanda, 1 fevral 1949-cu ildə Ankarada əsası qoyulan Azərbaycan Mədəniyyət Dərnəyinin yaranması və fəaliyyəti də geniş təsvir olunmuşdur. Dərnəyin əsas məqsədinin Azərbaycanı tanıtmaq, onun tarixi, iqtisadiyyatı, mədəniyyəti haqqında məlumatlar toplamaq, yaymaq, milli və tarixi günlərini qeyd etməkdir [5, s. 143].

S.Şimşir kitabının IV fəslində mühacirlərin 1955-1991-ci illərdəki fəaliyyəti haqqında yazmışdır. Azərbaycan Mədəniyyət Dərnəyi 1955-ci ildə M.Ə.Rəsulzadənin vəfatından sonra ağır günlər yaşamışdır. Qeyd olunan bu uzun müddətin təxminən ilk 20 ilində dərnəyin jurnal və gecə toplantılarından başqa fəaliyyəti yox idi.

1970-ci illərdə müəyyən qədər fəallaşma olmuşdur. Bu da Türkiyənin daxili siyasəti ilə əlaqədar idi. 1955-ci ildən Müsavat partiyasının sədri Mirzə Bala Məmmədzadə olmuşdur. Azərbaycan mədəniyyət mərkəzinin vasitəsilə müsavatçılar hər ilin 27 Aprel tarixini matəm günü, 28 May tarixini isə istiqlal bayramı kimi qeyd edirdilər [5, s. 183-184]. 1988-ci ildə Azərbaycan milli azadlıq hərəkatı aktuallaşmağa başlamışdır. 1990-cı il 20 Yanvar hadisələri ilə Müsavatçılar, xüsusən də Türkiyədə böyük ictimai fikir yaradaraq xarici mətbuatda da güclü təsir etmişdir [5, s. 187].

Sebahattin Şimşirin AXC tarixinə aid tədqiqatları başqa bir kitabı olan "Mehmet Emin Resulzade hayatı ve şahsiyyeti"ndə əks olunmuşdur. Giriş, 9 fəsil və nəticədən

ibarət olan əsərin ilk fəsli Azərbaycanın işğalına həsr edilmişdir. İkinci fəsildə M.Ə.Rəsulzadənin şəxsi və siyasi fəaliyyəti haqqında geniş məlumat verilmişdir. Müsavat partiyasının qurulması məqsədi "gələcəkdə Azərbaycan isqtiqlalını gerçəkləşdirmək vəzifəsi olan bu partiya, yəni "Milli Müsavat Partiyası" Məhəmməd Əli Rəsuloğlu, Abbasqulu Kazımzadə və Azərbaycanın zəngin şəxslərindən biri olan Tağı Nağıyev tərəfindən 1911-ci ildə Bakıda əsası qoyulmuşdur" cümlələrində öz əksini tapmışdır [7, s. 25]. S.Şimşir 1918-ci il mart hadisələrinə toxunaraq yazmışdır: "şübhəsiz ki, bu qətliamların ən ağırı 31 Mart tarixində həyata keçirilən və tarixə də bu adla daxil olan hadisələrdir" [7, s. 43]. Bu fəsildə müəllif Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması, AXC-nin xarici siyasəti və süqutunu, eyni zamanda M.Ə.Rəsulzadənin Moskvadakı fəaliyyətini geniş təsvir etmişdir.

S.Şimşirin digər dəyərli əsərlərindən biri də "Mehmet Emin Resulzade: Bir kere yükselen bayrak bir daha inmez" kitabıdır. Kitab 7 fəsildən ibarətdir. İlk dəfə 1995-ci ildə nəşr olunan kitab 2019-cu ildə üçüncü dəfə nəşr olunmuşdur. Kitabın I fəslində M.Ə.Rəsulzadənin ailəsi, təhsil həyatı, İrandakı fəaliyyəti, Türkiyəyə ilk gəlişi, Batum konfransı, Mart hadisələri, Cümhuriyyətin elanı və süqutu, eləcə də, M.Ə.Rəsulzadənin Moskva səfəri geniş şəkildə əks olunmuşdur. Mart qırğınının Bakıda 30 mart tarixindən S.Şaumyanın başçılığı ilə başlayıb aprelin 2-dək davam etdiyini və Şamaxı, Kürdəmir, Lənkəran, Salyan, Quba və Nəvai qəzalarında da qətliamların həyata keçirildiyini yazan müəllif qətliamların ən ağırının isə martın 31-də olduğunu və elə tarixə də eyni adla düşdüyünü qeyd edir. S.Şimşir I fəsildə eyni zamanda Mart faciəsini yaşayanlardan olan Əlisəttər Babayevin və Cəfər Rəmzinin qətliamla bağlı dediklərini də yazmışdır [6, s. 45-46 ].

AXC və M.Ə.Rəsulzadəyə həsr olunan kitablardan biri kimi Nəsiman Yaqublu tərəfindən yazılan və Ankarada nəşr olunan "Mehmet Emin Resulzadə ansiklopedisi" kitabını qeyd edə bilərik. Bu kitab Azərbaycanın dahi şəxsiyyətlərindən biri olan M.Ə.Rəsulzadənin həyat və yaradıcılığına həsr olunub.

İlk dəfə olaraq onun Azərbaycandakı fəaliyyətini və mühacirətini təsvir edir. Bu bioqrafik əsərdə onun öz yazılarına və əsərlərinə geniş yer verilib. 1920-ci il yanvarın 12-si respublikanın xarici dövlətlər tərəfindən tanındığı gündür. Azərbaycan xalqı bunu bayram kimi qeyd etməyə başlayıb. Çünki bu, onun haqqı idi ki, sivilizasiya tariximizin şanlı ziyalıları azadlıq və müstəqillik günündə ölkəmizdə məskunlaşdılar, demokratik fəaliyyətimiz hər sahədə yüksək qiymətləndirildi. 100 ildir başımıza gələn zülm və işğal ölkəmizi tərk edib getdi. Azərbaycan bütün Qafqaz respublikaları ilə birlikdə 1918-ci ildə öz azadlığını və istiqlaliyyətini əldə etdi. 1920-ci ildə bu müstəqillik onlardan qan və barıtla alındı. Fəlakətlərlə, qəhrəmanlıqlarla dolu bu mübarizədə on minlərlə vətəndaşımız həyatını itirdi [8, s. 12]. İstər Azərbaycanda baş verən 1918-ci ilin mart hadisələri, istərsə də Zaqafqaziya Seymində olan mübahisələr münasibətləri gərginləşdirmiş və bu məqam Azərbaycan xalqının milli müstəqilliyi uğrunda mübarizəsində vacib amil olmuşdur [8, s. 54].

## 2. Azərbaycan Xalq Cümhuriyyəti dövrü mətbuatı

Növbəti tədqiqat əsərlərindən birinin müəllifi Akif Aşırlı olan "Azerbaycan Halk Cumhuriyyeti basını dönemində Kafkas İslam Ordusu" kitabıdır. XX əsrin əvvəllərində meydana çıxan azadlıq hərəkatı və bu hərəkatın nəticəsi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinə mətbuatda tez-tez yeridilən ideoloji çalışmalar zəmin yaratmışdır.

1918-ci il mart hadisələrindən əvvəl təxminən 15 ədəd türkcə qəzet və jurnal nəşr edilirdi [1, s.7]. Etdikləri vəhşiliklərin dünyaya çatdırılmasının qarşısını almaq məqsədilə, xüsusi ilə də qəzet, jurnal, məcmuə və mətbəə avadanlıqlarının məhv edilməsi istiqamətindəki fəaliyyətlərinin nəticəsində "Açıq söz", "Bəsirət", "El həyatı", "İstiklal" və "İttihad"

qəzetləri işlərini dayandırmaq məcburiyyətində qalmışdır. Bakı Xalq Komissarları Mətbuat Bürosunun verdiyi qərara əsasən "Mart hadisələrini səhv şərh etdikləri, qərəzli məqalələr yayınladıqları və sosialist cəbhədə yer almadıqları" səbəbi ilə "Kaspi", "Baku", "Bakinets", "Vesti Baku" və menşeviklərə məxsus "Naş qolos" qəzetləri bağlandı. 31 Mart soyqırımında minlərlə insan və binanı məhv etməklə kifayətlənməyən qatillər "Novruz", "Kaspi", "Turan" və "Açıq söz" mətbəələrini yandırdılar, Orucov qardaşları mətbəəsini isə dağıtdılar [1, s. 8].

Azərbaycan tarixinin tədqiqinə həsr olunmuş "Osmanlı belgelerinde Azerbaycan" adlı növbəti əsərdə Osmanlı arxivlərində yer alan orijinal sənədlər dəyərləndirilərək, iki qardaş ölkə arasındakı tarixi bir dönəm iki ölkənin elm aləminin istifadəsinə təqdim olunmuşdur. Əsərdə Osmanlı dövlətinin regionda nüfuz uğrunda mübarizələri ilə Azərbaycanda olan Xanlıqlar arasındakı münasibətləri, Rus işğalına məruz qalan regionla Osmanlı dövlətinin münasibətləri, rusların təzyiqi ilə həyata keçirilən erməni zülmləri araşdırılmışdır. 1918-ci ildə müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı sənədlər işıqlandırılmışdır [4, s. 6].

Hal-hazırda olduğu kimi, Osmanlı dövründə də Türkiyənin Azərbaycana marağı və dəstəyi hər zaman olmuşdur. I Dünya müharibəsinin sonlarında, Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusu sayəsində 28 May 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan edilmiş və 15 sentyabr tarixində Bakı İngilis işğalından azad edilmişdir. Qurtuluş müharibəsi dövründə də Azərbaycan Türkiyəyə qarşılıq gözləmədən dəstəyini vermişdir [4, s. 5]. Azərbaycanda Xanlıqlar dövrü, 1913-cü il Gülüstan və 1928-ci il Azərbaycanın ikiyə bölünməsinə səbəb olan Türkmənçay müqaviləsindən, 1918-ci ildə AXC-nin elan edilməsi üçün aparılan tarixi mübarizə haqqında, eyni zamanda AXC-nin elan edilməsi və ondan sonrakı dövrü əhatə edən üç fəsildə geniş məlumat verilmişdir.

### 3. Mehmet Saray və Okan Yeşilotun tədqiqatlarında Azərbaycan Xalq Cümhuriyyəti

AMEA-nın Tarix İnstitutu 2010-cu ildə qardaş Türkiyə Cümhuriyyətinin görkəmli tarixçisi professor Mehmet Sarayın "Quzey və Güney Azərbaycan türklərinin tarixi" əsərini nəşr edərək tədqiqatçılar və geniş oxucu kütləsinə təqdim etmişdir. Bütün türk dünyasının görkəmli tarixçisi Mehmet Saray özünün tarixi tədqiqatlarını yalnız Osmanlı imperatorluğu və Türkiyə Cümhuriyyətinin deyil, bütün türk dünyasının tarixinə həsr etmişdir [3, s. 3]. Mehmet Sarayın Azərbaycan tarixinə həsr etdiyi bu monoqrafiya alimin ilk mənbələrə əsaslanaraq apardığı elmi araşdırmaların nəticəsidir [3, s. 4].

Kitabda Azərbaycanın müstəqilliyinə aparan çətin prosesdən bəhs edilir. 1828-ci il Türkmənçay müqaviləsi ilə Rusiya ilə İran arasında paylaşılan Azərbaycanın taleyi, Rusiya və Sovet hakimiyyəti altında Şimali Azərbaycan türklərinin vəziyyəti, İran hakimiyyəti altında olan Güney Azərbaycan türklərinin iqtisadi və mədəni həyatı, müstəqilliyini bərpa edən Azərbaycan türklərinin bugünkü vəziyyəti və buna bənzər bir çox suallara cavab tapmaq olar. Bu tədqiqat əsərində, həmçinin 28 may 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin yaradılması, 1918-ci il 4 iyun tarixində Azərbaycan və Osmanlı arasında dostluq və əməkdaşlıq sazişi təfərrüatı ilə öz əksini tapmışdır [3, s. 280 ].

Kitabın XXV fəslində Azərbaycan heyətinin Paris sülh konfransındakı fəaliyyəti və böyük dövlətlərin Azərbaycanda baş verən hadisələrə mövqeyini bu cümlələrlə ifadə etmişdir: "Əli Mərdan bəy Topçubaşovun sədrliyi vasitəsilə Azərbaycan heyəti ilə Türkiyə heyəti Parisdə keçirilən beynəlxalq konqresdə ingilis, alman, fransız və amerikan heyətləri ilə 12 yanvar 1920-ci ildə Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınacağı xəbərini almışdır. Lakin Azərbaycan və Gürcüstanın müstəqilliyini tanıdıqlarını elan edən böyük dövlətlər, bu ölkədə pozuculuq fəaliyyəti ilə məşğul olan erməni və menşevik hərbçilərinin hərəkətlərinə nə mane olmuşlar, nə də bir tədbir görmüşdülər.

Nəticədə, Azərbaycanın müstəqilliyi uzun müddət davam etməmiş, Sovetin qızışdırması və müdafiəsi ilə təkcə azərbaycanlılara deyil, eyni zamanda Türkiyə türklərini də təqib edən ermənilər böyük təxribatlar törətməyə başlamışdılar. O ana qədər səbrlə gözləyən Şərq Cəbhəsi komandiri Kazım Qarabəkir paşaya Ankaradan icazə və qətliamı dayandırmaq əmri verilmişdir" [3, s. 285-286]. Daşnakların rəhbərliyi ilə dəhşətli qətliamlar törədən ermənilərə Kazım Qarabəkirin rəhbərliyi ilə türk qüvvələri ağır zərbə endirərək qətliamı dayandırmışdır. Türk ordusunun bu uğurlu hərbi əməliyyatının Azərbaycana qədər irəliləməsindən narahat olan bolşeviklər Qırmızı orduya əmr edərək, Qafqazın işğalını həyata keçirmişdir. Gürcüstan, Azərbaycan və Ermənistanı işğal edərək bu ölkələrdə bolşeviklər hökumətlərini yaratmışdılar [3, s. 286].

Son dönəmlərdə Azərbaycan tarixinə aid yazılmış kitablardan biri də giriş, 12 fəsil və nəticədən ibarət olan Okan Yeşilot tərəfindən qələmə alınan "Ateş çemberinde Azerbaycan" əsəridir. Müəllif ilk olaraq girişdə və eləcə də kitabın fəsillərində tarix boyu strateji əhəmiyyət kəsb edən bölgənin yeri və əhəmiyyəti, Azərbaycanın tarix səhnəsinə çıxması, Xanlıqlar dövrü, AXC-nin yaranması və Sovet dövrünü, Azərbaycan maarifçilərinin yetişməsi, SSRİ dağılandan sonra regionda baş verən geosiyasi dəyişikliklər və Azərbaycan Respublikasının yeritdiyi siyasət haqqında ətraflı məlumat verir.

AXC-nin yaranması və onun üzləşdiyi təhlükələri müəllif bu cümlələrlə ifadə edir: "Bu regionda müstəqil bir dövlətin meydana çıxması Osmanlı imperatorluğunun da dəstəklədiyi bir hal idi. Cənubi Qafqaz Seymində yer alan müsəlmanlar 28 may 1918-ci ildə aldıqları qərarla Azərbaycan Milli Şurasını yaratdı və bununla da Azərbaycan milli dövləti yaradılmış oldu. Yeni yaradılan dövlətlər içərisində ən az bolşevik əleyhdarları olan dövlət Azərbaycan idi. Dövlət üçün ən böyük təhlükə Denikinin Ağ ordusu idi. Çünki, vahid və bölünməz Rusiya şüarı ilə meydana çıxan ağqvardiyaçılardan, təbii ki, Azərbaycanın tanınmasını gözləmək olmazdı. Beləliklə, 1919-cu il oktyabr və noyabr aylarında Rusiya tərəfindən məğlub edildikdən sonra geri çəkilmək məcburiyyətində qaldı. Lakin Azərbaycan üçün yeni təhlükə olan Qızıl ordu vardı" [9, s. 27].

**Nəticə**

Qısa müddət ərzində mövcud olmasına baxmayaraq, sözün əsl mənasında tarixdə iz qoymuş Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti, süqutunun araşdırılması hər zaman yerli və xarici tarixçilər üçün öz əhəmiyyətini qoruyub saxlayır.

Azərbaycan Xalq Cümhuriyyəti özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından geri qalmırdı [2, s. 44]. 2003-2023-cü illərdə Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin tədqiqinə həsr olunmuş dəyərli əsərlər sırasında Sebahattin Şimşir tərəfindən yazılmış "Azerbaycan istiklal mücadelesi", "Mehmet Emin Resulzade hayatı ve şahsiyyeti", Mehmet Sarayın qələmə aldığı "Kuzey ve Güney Azerbaycan türklerinin tarihi", eləcə də, əsasən, arxiv sənədləri əsasında yazılan "Osmanlı belgelerinde Azerbaycan" və digər kitabları göstərmək olar.

## ƏDƏBİYYAT


1. Aşırlı A. Azerbaycan Halk Cümhuriyyeti Dönemi Basınında Kafkas İslam Ordusu. Bakı: Qismət, 2008,159 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I c., Bakı: Lider, 2005, 440 s.
3. Saray M. Şimal və Cənub Azərbaycan türklərinin tarixi. Bakı: Şərq-Qərb, 2010, 723 s.
4. Osmanlı Belgelerinde Azerbaycan. İstanbul: Türk dünyası belediyeler birliği, 2015, 624 s.
5. Şimşir S. Azerbaycan Istiklal Mücadelesi. İstanbul: İQ Kültür sanat yayıncılık, 2013, 280 s.

6. Şimşir S. Mehmet Emin Resulzade: Bir Kere Yükselen Bayrak Bir Daha Inmez. İstanbul: Post, 2019, 176 s.
7. Şimşir S. Mehmet Emin Resulzade Hayatı Ve Şahsiyyeti. İstanbul: Doğu Kütüphanesi, 2012, 189 s.
8. Yaqublu N. Mehmet Emin Resulzadə Ansiklopedisi. Ankara: Azerbaycan Kültür Derneği, 2015, 503 s.
9. Yeşilot O. Ateş çemberinde Azerbaycan. İstanbul: Yeditepe, 2021, 232 s.

**_Резюме_**

**_Айнур Керимли_**

**_История Азербайджанской народной республики_**
**_в исторологии турции (2003-2023 гг.)_**

В статье речь идет об исследовании различных аспектов истории Азербайджанской Демократической Республики в турецкой историографии за 2003-2023 годы. Изучение истории Азербайджанской Демократической Республики, являющийся беспрецедентным событием в истории Азербайджана, с момента его создания находится в центре внимания как азербайджанских историков, так и зарубежных историков, особенно турецких историков.

История Азербайджанской Демократической Республики в XXI веке стала более широко изучаться по сравнению с предыдущими годами. Для турецких историков, изучающих историю республики, первоисточником были труды интеллектуалов, вынужденных эмигрировать из Азербайджана. Однако благодаря восстановлению государственной независимости Азербайджана в 1991 году и победе во Второй Карабахской войне два и без того близких государства установили еще более тесные связи с изменениями в географии.

Наличие дружественных отношений между двумя государствами определило их близость как в других областях, так и в области науки, а количество ценных исследовательских работ и статей, посвященному изучению истории Азербайджанской Демократической Республики, значительно возросло в 2003-2023 гг. в турецкой историографии.

Среди ценных работ, посвященных изучению истории Азербайджанской Демократической Республики в 2003-2023 годах, можно отметить «Борьбу за независимость Азербайджана», в которой подробно описывается существование и падение Азербайджанской Демократической Республики, а также деятельность республиканцев в эмиграции, «Жизнь и личность Мехмета Эмина Расулзаде», «Мехмет Эмин Расулзаде: Флаг, поднятый однажды, никогда не упадет» Себахаттина Шимшира, а также «История тюрков Северного и Южного Азербайджана» Мехмета Сарая, «Кавказская исламская армия в печати в период Азербайджанской Демократической Республики» Акифа Аширли, «Азербайджан в османских документах», написанная в основном на основе архивных документов и «Азербайджан в кругу огня» Окана Ешилота, написанная об истории Азербайджана в новейшее время и состоит из введения, двенадцати глав и заключения.

**Ключевые слова**: *республика, эмиграция, большевики, партия «Мусават», независимость*

**_Summary_**

**_Aynur Karimli_**

**_History of the Azerbaijan Democratic Republic_**
**_in the hisoriology of Turkey (2003-2023)_**

The article deals with the research of various aspects of the history of the Azerbaijan Democratic Republic in Turkish historiography during 2003-2023. The study of the history of the Azerbaijan Democratic Republic, which is an unprecedented event in the history of Azerbaijan, has been the focus of attention of both Azerbaijani historians and foreign historians, especially Turkish historians, since its inception.

The history of the Azerbaijan Democratic Republic has been more widely studied in the 21st century compared to previous years. For Turkish historians studying the history of the republic, the primary source was the works of intellectuals who were forced to emigrate from Azerbaijan. However, due to the restoration of state independence of Azerbaijan in 1991 and the victory in the Second Karabakh War, the two already close states have established even closer relations with the changes in the geography.

The presence of friendly relations between the two states has determined their closeness in other

fields as well as, in the field of science, and the number of valuable research works and articles devoted to the study of the history of the Azerbaijan Democratic Republic has increased significantly in 2003-2023 in Turkish historiography.

Among the valuable works dedicated to the study of the history of the Azerbaijan Democratic Republic during the years 2003-2023, can be mentioned "Azerbaijan independence struggle" which describes in detail the existence and fall of the Azerbaijan Democratic Republic and the activities of the republicans in emigration, "The life and personality of Mehmet Emin Resulzade", "Mehmet Emin Resul-zade: A flag raised once will never come down" written by Sebahattin Shimshir, as well as "The History of North and South Azerbaijan Turks" written by Mehmet Saray, "Caucasian Islamic Army in the press during the Azerbaijan Democratic Republic" by Akif Ashirli, "Azerbaijan in the Ottoman documents" written mainly on the basis of archival documents and “Azerbaijan in the circle of fire" written by Okan Yeşilot, which is written about the history of Azerbaijan in the recent times and consists of introduction, twelve chapters and conclusion.

**Key words**: *republic, emigration, Bolsheviks, Musavat party, independence*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.